AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

*Əlyazması hüququnda*

**ƏSGƏR İMRAN OĞLU ABİDZADƏ ƏNDƏRYAN**

# "ƏMR BİL-MƏRUF VƏ NƏHY ANİL-MÜNKƏR"İN QURANDA VƏ HƏDİSLƏRDƏ YERİ

**7213.01 – "Dinşünaslıq"**

**İlahiyyat üzrə fəlsəfə doktotru**
**elmi dərəcəsi almaq üçün təqdim olunmuş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2013**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir tarixi" şöbəsində yerinə yetirilmişdir.

Elmi rəhbər: Kamandar Kazım oğlu Şərifov
filologiya üzrə elmlər doktoru

Rəsmi opponentlər: Möhsün Zellabdin oğlu Nağısoylu
professor, filologiya üzrə elmlər doktoru

İlkin Ənvər oğlu Əlimuradov
ilahiyyat üzrə fəlsəfə doktoru

Aparıcı təşkilat: Azərbaycan Dövlət Pedaqoji Universiteti
Fəlsəfə kafedrası

Müdafiə 25 oktyabr 2013-cü ildə saat "____"-də AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəzdində Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.
Ünvan: AZ1001, Bakı, İstiqlaliyyət küçəsi, 8.

Dissertasiya ilə AMEA-nın Mərkəzi Elmi kitabxanasında tanış olmaq olar.

Avtoreferat "_____" 2013-cü ildə göndərilmişdir.

**İxtisaslaşdırılmış Şuranın**
**elmi katibi, ilah.üzrə fəl.d.** **Z.A.Əbilova**

## İŞİN ELMİ SƏCİYYƏSİ

Müsəlman cəmiyyətində ictimai, hər hansı bir siyasi hadisə, məsələ və problemin həlli üçün ilk öncə Qurana, sonra isə sünnəyə müraciət edilməsi Peyğəmbər (s) dövründən bizə məlumdur. Məhz bu qaynaqlar əsasında müsəlman cəmiyyətinin qanunları, əxlaq normaları və mənəvi dəyərləri müəyyən edilir, ortaya çıxan istənilən ixtilafların bu qaynaqlar əsasında həll edilir. "Dünya mədəniyyətinin ən möhtəşəm abidələrindən biri olan Qurani-Kərim müsəlmanlığın dini-fəlsəfi, hüquqi qaynağı olmaqla yanaşı, həm də çox mühüm bir ədəbi-tarixi mənbədir".[1] İnsanları haqqa, ədalətə, paklığa, düzlüyə və imana çağıran, əmr və qadağaları ilə əsrlər boyu müsəlmanların həyat, davranış və təfəkkür tərzini müəyyən etmiş Qurani-Kərim bəşər övladının bu dünyasını və axirətini işıqlandırır. Bu müqəddəs Kitabda bütün dini və dünyəvi məsələlərlə bərabər, islam dininin əsasını təşkil edən "yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək" ("əmr bil-məruf və nəhy anil-münkər") hökmlərinə xüsusi yer verilmişdir. Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək islamın önəmli məsələlərindənolub, Quran ayələrində, hədis və rəvayətlərdə onun xüsusi bir yeri vardır. Bu hökmlər vasitəsilə ilahi ayinlərin, qanunların hamısı yerinə yetirilir, hətta, müsəlman hökumətinin quruluşu və onun hökmlərinin icrası da ona bağlıdır. Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək cəmiyyətin keşiyində duran bir nəzarətçi və eyni zamanda sağlam ictimai mühit yaratmaq yolunu göstərən hökmlərdir. Belə mühitdə insanlarda olan istedad düzgün yolla inkişaf edib, lazımi məhsul verər. Bu hökmlər adamlarda yaşadıqları cəmiyyətdə ictimai məsuliyyət hissi yaradır, onlara əməl edənlərə Allah rəhm edəcəkdir.

---

[1] V.M.Məmmədəliyev. Ön söz, - Quranın tərcüməsi (tərcümə edənlər Z.M.Bünyadov və V.M.Məmmədəliyev). Bakı, 2008, s.9.

Bəşər övladlarının yüksək əxlaqi keyfiyyətlərə yiyələnən fərdlər kimi tərbiyə olunmasında və cəmiyyətdə haqqın və ədalətin bərqərar olunmasında və islam ehkamlarının yerinə yetirilməsində yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək həlledici rol oynayır. Quranda çoxlu sayda ayələr bu hökmlərin nə dərəcədə əhəmiyyətli olduğunu diqqətə çatdırır, onlara əməl edənlərin Allah tərəfindən mükafatlandırılacaqları bildirilir. Həmin ayələrdə əmr-nəhy edən və islamın bütün ehkamlarını yerinə yetirən möminlərin bu dünyasının və axirətinin nurlu olacağı, onlarla əks mövqedə duran, pis əməllərlə məşğul olan, cəmiyyətdə təfriqə salan münafiqlərin isə layiq olduqları cəzaları alacaqları deyilir.

Yer üzündə insan övladı Allah-Təala tərəfindən xəlq edildiyi zamandan etibarən cəmiyyətdə haqqın, ədalətin, gözəl insani əxlaqın bərqərar olunması, insanları bəd əməllərdən, ədavətdən, düşmənçilikdən uzaqlaşdırmaq məqsədilə Allah-Təala zaman-zaman yer üzünə peyğəmbərlər göndərmişdir.

Allah-Təala islamın qanunlarına düzgün riayət olunmasına nəzarət etmə vəzifəsini bütün cəmiyyət üzvlərinin öhdəsinə qoymuşdur. Buna əsaslanaraq hər bir müsəlman yaxşı işlər görməyi əmr etməyi və pis işlərdən çəkindirməyi yerinə yetirməklə islam hökmlərinin düzgün icrasına yardım edər, gerçəkdən həm bir icraedici qüvvə, həm də ciddi nəzarətçi sayılar. Yaxşılığı əmr etmək və pislikdən çəkindirmək prinsipi insanların biri-biri üzərində, eləcə də dövlət və idarə başçıları üzərində nəzarət imkanları verir və onu dini vaciblər səviyyəsinə yüksəldir. Quran yaxşılığı əmr etmək və pislikdən çəkindirmək prinsipini rəhbər tutan ümməti başqa ümmətlərlə müqayisədə üstün tutur, fəzilət və kəramət zirvəsinə qaldırır. Buna görə də hər bir müsəlman dini vaciblər səviyyəsinə yüksəldilən bu hökmləri yerinə yetirməyə mükəlləf olunmuşdur. İslam dininin müqəddəs kitabı Qurani-Kərimdə, sünnədə və imamların kəlamlarında öz geniş əksini tapmış və islam dininin əsasını təş-

kil edən, cəmiyyətdə haqqın, ədalətin və nəzarətin bərqərar edilməsi baxımından böyük əhəmiyyətə malik olan yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmləri Azərbaycanda ilk dəfə olaraq tədqiqt obyekti kimi seçilmiş, Quran, hədislər və rəvayətlər əsasında kompleks şəkildə araşdırılmışdır.

Bütün yuxarıda deyilənlər bu dissertasiya işi üçün seçilmiş tədqiqat mövzusunun tamamilə aktual olduğunu təsdiq etməyə əsas verir.

**Tədqiqatın əsas məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi islamda yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmlərinin Quran, sünnə və imamların kəlamları əsasında araşdırılması və bu hökmlərin çağdaş dünyada əhəmiyyətinin müəyyənləşdirilməsi nəzərdə tutulmuşdur. Bunun üçün aşağıdakı vəzifələrin həyata keçirilməsi qarşıya qoyulmuşdur:

- Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmlərinin lüğəvi və istilahi mənalarının mənbələr əsasında müəyyənləşdirmək;
- Qurani-Kərimdə haqqa, ədalətə, paklığa və imana çağıran çoxsaylı ayələr əsasında yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmlərini araşdırmaq, onların başlıca mahiyyətini və əhəmiyyətini öyrənmək;
- Məhəmmədin yer üzünə Allahın Elçisi olaraq, yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmlərindən ibarət missiyasının həyata keçirilməsi istiqamətində fəaliyyətini sünnə əsasında araşdırmaq;
- Əli bin Əbi Taliblə yanaşı İmam Məhəmməd Baqir, İmam Cəfəri-Sadiq, imam Rza və başqalarının yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmlərinə mü-nasibətləri haqqında məlumat vermək;
- Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmlərinin çağdaş müsəlman cəmiyyətində ümumi nə-

zarət forması kimi tətbiq edilməsini öyrənmək;

- Yaxşı işlər görməyi əmr etməyin və pis işlərdən çəkindirməyin şərtləri və təsirini işıqlandırmaq.

**Tədqiqatın nəzəri-metodoloji əsasları.** Dissertasiyanın yazılmasında sosial-funksional və tarixi-müqayisəli metoddan istifadə edilmiş, kompleks tədqiqat üsulu tətbiq edilmişdir. Dissertasiyada Azərbaycan, ərəb, türk, rus və qərb ədəbiyyatı kontekstində tədqiqatın predmeti ilə əlaqədar görkəmli alimlərin elmi müddəalarına, fikirlərinə əsaslanmış, tədqiqat prosesində mövcud elmi nəticələrdən söz açılmışdır.

**Tədqiqatın elmi yeniliyi.** İslamın əsasını təşkil edən yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmləri indiyədək Azərbaycanda ayrıca kompleks şəkildə tədqiqat obyekti olmamışdır. Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmləri çoxsaylı Quran ayələri, Peyğəmbər (s) hədisləri, Əli bin Əbi Talib və başqa imamların kəlamları əsasında bütöv şəkildə araşdırılmış, onların mahiyyəti öyrənilərək,

- Quranın yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmləri ilə bağlı ayələri müəyyənləşdirilmiş və onların geniş şərhi verilmişdir;
- Məhəmməd peyğəmbərin (s) missiyasının əsasını təşkil edən yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmlərini ehtiva edən hədislər müəyyən edilərək, ətraflı şəkildə araşdırılmışdır;
- Əli bin Əbi Talib və başqa imamların yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmləri haqqında söylədikləri kəlamları geniş araşdırmalar nəticəsində aşkar edilərək, tədqiqata cəlb edilmişdir;
- Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək hökmləri çağdaş müsəlman cəmiyyətində ümumi nəzarət forması kimi tətbiq öyrənilmişdir;
- Yaxşı işlər görməyi əmr etməyin və pis işlərdən çəkin-

dirməyin şərtləri və təsiri şərh edilmişdir.

**Tədqiqatın praktiki əhəmiyyəti** onunla müəyyən edilir ki, dissertasiyanın başlıca müddəaları, habelə mövzunun əsas aspektlərinin müfəssəl təhlili sayəsində əldə edilmiş nəticə və tövsiyələr həm də praktiki əhəmiyyət kəsb edir. Dissertasiyanın nəticələri Quran ayələrinin nazil olma səbəblərinin öyrənilməsində, Peyğəmbərin (s) müsəlman icmasının möhkəmləndirilməsi, müsəlmanların savadlanması və elmi biliklərə yiyələnməsi istiqamətində göstərdiyi fəaliyyəti ilə bağlı gerçəkliklərin işıqlandırılmasında, Əli ibn Əbi Talib və başqa imamların islam vəhdətinin qorunub saxlanması uğrnda apardıqları mübarizənin öyrənilməsində faydalı ola bilər, pedaqoji işdə, ali məktəblərin şərqşünaslıq və ilahiyyat fakültələrinin tələbələri üçün dərsliklərin hazırlanmasında istifadə oluna bilər.

**İşin aprobasiyası.** İş Azərbaycan Milli Elmlər Akademiyası akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun "Din və ictimai fikir" şöbəsində hazırlanmış və AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun "Ərəbdilli əlyazmaların tədqiqi" şöbəsinin iclasında müzakirə olunaraq, müdafiəyə məsləhət görülmüşdür. Dissertasiyanın əsas müddəaları və nəticələri öz əksini müəllifin elmi jurnallarda çap olunmuş məqalələrində və seminarlardakı məruzələrində tapmışdır.

**Dissertasiyanın strukturu.** Dissertasiya giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

## İŞİN ƏSAS ELMİ MƏZMUNU

Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın elmi yenilikləri, məqsəd və vəzifələri, nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir.

**"Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək" Quran ayələrində"** adlanan birinci fəsil dörd bölmə-

dən ibarətdir. "Məruf və münkər sözlərinin lüğəti və istilahi mənaları" adlanan birinci bölmədə mənbələr əsasında "məruf" və "münkər" sözlərinin məna çalarları öyrənilir.

İslam dininin əsasını təşkil edən "yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək" müsəlmanların həyat, davranış və təfəkkür tərzini müəyyən edir. Bu ifadənin birinci tərəfini təşkil edən "əl-məruf" sözünün lüğəti mənası "məlum, tanınmış, yaxşı, məşhur" və başqa mənaları bildirir. İslamda "əl-məruf" (yaxşılıq) sözü ağlın qəbul və şəriətin yaxşı hesab etdiyi hər hansı bir əmələ deyilir.[2]

Sağlam ağlın qəbuledilməz saydığı hər hansı bir nalayiq işə "əl-münkər" (pis) deyilir. Məruf sözü göstərildiyi kimi "yaxşı" mənasında işlənirsə, "münkər" onun əksinə olaraq "pis, bəyənilməyən" anlamını ifadə edir.[3] Mərufa əməl etməyin özü savab olduğu halda münkər dini dəyərlərə qarşı duran, insan yaşayışında mənəviyyatın hakim olmasını əngəlləyəndir. Buna görə də dini cəmiyyətdə münkərə qarşı mübarizə aparılır.[4] Əmr bil-məruf Quran və sünnədə insana ünvanlanmış bir göstəriş və ya fərmandır, nəhy anil-münkər isə insanı nəfslə şəhvətin meyl göstərdikləri yollardan qaytarmaqdır.

Quran və sünnədə "yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək" hökmləri və onların mahiyyəti haqqında onlarla ayələr və hədislər verilmiş, onların yerinə yetirilməsinin əhəmiyyəti işıqlandırılmışdır.

Fəslin **"Quranın əmr hökmlü ayələri"** başlığı altında verilən ikinci bölməsində islam şəriətinin və sağlam ağılın qəbul etdiyi yaxşı əməllərin həyata keçirilməsini əmr edən Quran

---

[2] الراغب الاصفهانی. مفردات الفاظ القران الكريم. دمشق، ١٩٨٧، ص.٥٦١؛
Х.К.Баранов.Арабско-русский словарь. Москва, 1984, ст.150.

[3] Х.К.Баранов.Арабско-русский словарь. Москва, 1984, ст.829; راغب الصفهانی، حسن بن محمد. المفردات فی غريب القران، بيروت، ١٩٩٢، ص.٣٩؛ دکتور بهمن منصوری. نظارات همکانی به معروف و نهی از منکر در قران کریم. الجلد الثالث. تهران، ١٣٨٣، ص.٣٧.

[4] سبزه ای محمد تقی. اهمیت و کارکرد های اجتماعن. تهران، ص.١٤.

ayələri işıqlandırılır. İslam dininin müqəddəs kitabı olan Quran yalnız müsəlmanların deyil, eyni zamanda bütün dünya xalqlarının qabaqcıl ziyalılarının diqqət mərkəzində olmuş, dünyanın görkəmli alimləri bu zəngin elm, hikmət və əxlaq xəzinəsini öyrənməyə ömür sərf etmişlər.

Qurandakı ayələr haqqa, ədalətə, paklığa, düzlüyə və imana çağırışından ibarət olan Allah kəlamları insanları yaxşı işlər görməyə əmr edir, pis işlər görməkdən çəkindirir. "Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək"lə bağlı nazil olmuş ayələr məzmununa görə biri-birindən fərqlənir. Quranda elə ayələr vardır ki, onlar ya "əmr", ya "nəhy" (çəkindirmək) və ya da "əmr-nəhy" anlamında işlənmişdir. "Əmr" anlamında nazil olmuş ayələrə nümunə olaraq "Fatihə" surəsinə müraciət edək:

("Bizi doğru yola yönəlt"). اهدنا الصراط المستقيم[5]

İlk baxışda elə düşünmək olar ki, Allah-Təala bu ayə ilə insanları hər-hansı bir işin yerinə yetirilməsinə çağırmamışdır. Ancaq azca fikirləşdikdə görürük ki, bu ayə insanları dərindən düşündürən Allah kəlamıdır. Həmin ayədə Allah-Təala buyurur ki, ey insanlar, doğru yola hidayət olmaq üçün Allahdan yardım istəyin. Buradan belə bir fikir hasil edirik ki, insanların yolu ikidir. Bunlardan biri Allah-Təalaya ən yaxın yol hesab edilən doğru yoldur. Bu yol inam gətirənlərin yoludur. Başqa bir yol isə doğru olmayan yoldur. Bu da Allaha inam gətirməyən kafirlərin yoludur. Əyri yolu zalimlər və Allaha şərik tutanlar yaradır. Bu yol Allahın qəzəbinə düçar olanların və həqiqətdən azanların yoludur.

يا ايها الناس اعبدوا ربكم الذى خلقكم و الذين من قبلكم لعلكم تتقون[6]

("Ey insanlar! Sizi və sizdən əvvəlkiləri yaratmış rəbbinizə ibadət edin ki, bəlkə təqva sahibi olasınız").

Quran ayələrində Allah-Təala insanların üç qrupunu, yəni

---

[5] Quran, Fatihə surəsi, 6-cı ayə.

[6] Quran, Bəqərə surəsi, 21-ci ayə.

möminləri, kafirləri və münafiqləri göstərmişdir. Allahın pənahında və hidayətində olan və Onun “sirat” yolu ilə gedən insanlar möminlərdir. Ürəyinə bilməməzlik və nadanlıq möhürü vurulmuş, gözlərinə isə xəbərsizlik pərdəsi vurulmuş insanlar kafirlərdir. Münfaiqlər (ikiüzlülər) beş sağlam duyğu hissinə malik olsalar da, Haqqın sözünü saymadıqlarına görə həmin beş duyğu hissindən məhrum olanlara bənzəyirlər. Bu ayə insanların istər müsəlman, istər kafir, istər dinsiz, istərsə də ikiüzlü olmasından asılı olmayaraq onların hamısını bəndəliyə və özünə sarı çağırır. Beləliklə, bu ayə hamıya yönəldilmiş ümumi xitabdır.

"يا بنىّ اقم الصّلاة و أمر بالمعروف و انه عن المنكر و اصير على ما اصابک انّ ذالک من عزم الامور."[7]

(“Ey mənim kiçik oğlum, namaz qıl, camaatı yaxşılığa çağırıb pis işlərdən qaytar. Sənə yetən zülmlərə səbir et ki, bu ən yaxşı işlərdəndir”).

Bu şərafətli ayənin vacib məqamı yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək tapşırığından sonra çətinliklərə dözmək göstərişinin gəlməsidir. Deməli, göstərilən iki hökmün icrası yolunda bir sıra çətinliklərlə qarşılaşan kəsə, əmr-nəhy etməkdə səbirli olub, bu maneələrin üzərindən keçmək lazım olacaqdır. Əlbəttə, belə əzab-əziyyətə tab gətirməyin dəyəri də çox yüksəkdir.

Əgər hər hansı bir cəmiyyətdə münkərlər məruflara və pisliklər yaxşılıqlara üstün gələrsə, insaf və insanlıq yox olar. Adamların hüquqlarına ədalətsiz münasibət göstərilən, zülmün ayaq tutub yeridiyi, adamların bir-birinə etimadsızlıq göstərdiyi və onların biri-birinə düşmən gözü ilə baxdığı, əmin-amanlığın ortadan getdiyi bir cəmiyyətdə həyat dözülməz olar. Məhz buna görə də Loğman oğluna pisliklərdən uzaq olmağı, xalqı pis işlərdən çəkindirməyi tapşırır.

**“Qurani-Kərimin nəhy hökmlü ayələri”** adlanan üçün-

---

[7] Quran, Loğman surəsi, 17-ci ayə.

cü bölmədə müqəddəs Kitabın günah əməlləri qadağan edən ayələri araşdırılır. Allah-Təala Quranın yüzlərcə ayəsində müəyyən əməllərin icrasına əmr verdiyi kimi bəzi məsələlərdə də nəhy edibdir (pis işlərdən çəkindirib). Bu cür ayələrdə bəzi əməllərdə pisliklərin və fəsadların olması səbəbilə insanlara onlardan uzaq qalmağı buyurubdur.

"و لا تقولوا لمن يقتل فی سبيل اللّه اموات بل احياء و لكن لا تشعرون"[8]

("Allah yolunda ölənlərə ölü deməyin, onlar diridirlər, amma siz bilmirsiniz").

İslam dininin ilkin illərində bəzi adamlar özləri Peyğəmbərə (s) kömək etməyərək, Onun tərəfində döyüşüb şəhadətə yetişənlərə ölü adını qoyub, artıq təəssüf hissi keçirməklə milləti məyus edərdilər. Allah-Təala bu ayədə onlara cavab verıb açıq-aşkar bəyan edir ki, "sizin Allah yolunda canını qurban verənləri ölü saymağa haqqınız yoxdur. Bəlkə də onlar həmişəlik diridirlər və Allahın mənəvi yeməklərindən bəhrələnirlər. Onlar öz alın yazılarından razıdırlar. Siz isə bu maddi dünyanın dörd divarında dustaq qalıb bu həqiqəti dərk edə bilmirsiniz".[9]

İmanlı adamların şəhadət axtarmaları müxtəlif dövrlərdə əmin-amanlığın zəmanəti olmuşdur.

"يا ايّها الّذين آمنوا لا تلهكم اموالكم و لا اولادكم عن ذكر اللّه و من يعفل ذالک فاولئک هم الخاسرون"[10]

("Ey iman gətirənlər, sizin övladlarınızla dünya malınız sizi Allahı yad etməkdən uzaqlaşdırıb başınızı özünüzə qatmasın, belə işlər görənlər ziyankardırlar").

Bu ayədə insanlardan başlarının dünya malı ilə övladlara həddindən artıq qarışmaması tələb olunur, çünki belə işlər adə-

---

[8] Quran, Bəqərə surəsi, 154-cü ayə.

[9] جمعی از نويسندگاه. تفسير نمونه، الجلد الاول، تهران، "دار الكتب الاسلاميه"، ۱۳۶۹، ص. ۵۲۱

[10] Quran, əl-Munafiqunə surəsi, 9-cu ayə.

tən onları Allahdan qafil edər, Allahı yad etməkdən yayındırar. Bu ayə isə insanın Allahdan uzaqlaşaraq özünə ziyan yetirməyin qarşısını almaq üçün çalınan bir növ xəbərdarlıq zəngidir.

"يا ايّها الّذين آمنوا لا تاكلوا اموالكم بينكم بالباطل الاّ ان تكون تجارة عن تراض منكم و لا تقتلوا انفسكم انّ اللّه كان بكم رحيما" [11]

("Ey iman gətirənlər, qarşılıqlı razılıqla edilən ticarət müstəsna olmaqla bir-birinizin malını batilcəsinə yeməyin və özünüzü öldürməyin. Allah sizə qarşı mehribandır").

İlahi ayələrdə pisliklərdən çəkindirməyin ən bariz növlərindən biri də xalqı bir-birinin malını batilcəsinə yeməkdən və özünü öldürməkdən qorumaqdır. Əyri yollarla, hiylə və kələk gəlməklə qazanılan mallar batil sayılır. Başqalarının hüququnu pozmaq nəticəsində bəndəni Allahdan uzaqlaşdırmaqla əldə edilən bu cür mallardan faydalanmaq batildir.

**Fəslin "Quranın əmr və nəhy hökmlü ayələri"** adlı dördüncü bölməsində Qurani-Kərimin yaxşı işləri əmr edən və pis əməllərdən çəkindirən ayələri öyrənilir. Əgər mömin bəndələr Allaha itaət edərək, Onun bütün hökmlərinə əməl edirlərsə, münafiqlər əksinə olaraq Allahın itaətindən çıxmış, pis əməlləri görməyi əmr edib, yaxşı işləri qadağan edirlər. Bununla əlaqədar Quranda belə deyilir:

"المنافقون و المنافقات بعضهم من بعض يامرون بالمنكر و ينهون عن المعروف و يقبضون ايديهم نسوا اللّه فنسيهم انّ المنافقين هم الفاسقون"[12]

("Munafiq kişilərlə münafiq qadınlar (ikiüzlülükdə) bir-birinin eynidirlər. Onlar pis işləri görməyi əmr edər, yaxşı işləri qadağan edərlər. Hələ əlləri də bərkdir (xəsisdirlər). Onlar Allahı unudublar. Allah da onları unudub. Həqiqətən, münafiqlər (Allahın itaətindən çıxmış) fasiqlərdirlər").

"و المومنون و المومنات بعضهم اولياء بعض يامرون بالمعروف و ينهون عن اللّه انّ اللّه عزيز حكيم" و يوتون الزّكاة و [13]المنكر و يقيمون الصّلوة

[11] Quran, ən-Nisə surəsi, 29-cu ayə.
[12] Quran, ət-Tövbə surəsi, 67-ci ayə.
[13] Quran, ət-Tövbə surəsi, 71-ci ayə.

يطيعون اللّه و رسوله اولئک سيرحمهم

("Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar. Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər, namaz qılarlar, zəkat verərlər, Allaha və Onun Rəsuluna itaət edərlər. Allah, əlbəttə ki, onlara rəhm edəcəkdir. Həqiqətən, Allah yenilməz qüvvət sahibi, hikmət sahibidir").

71-ci ayədə Allah-Təala bildirir ki, yaxşı işlər görməyi əmr edən, pis əməllərdən çəkindirən, namaz qılan, zəkat verən möminlər həmişə biri-birinin dostu və himayadarı olacaq, Allaha və Onun Rəsuluna (s) itaət göstərərk, hidayat yolu ilə gedəcəklər. Buna görə də Allah-Təala onlara rəhm edərək, onların axirətini ilahi nuru ilə nurlandıracaq. Ancaq möminlərdən fərqli olaraq münafiqlərin arasında vilayət əlaqəsi və dərin birlik yoxdur. Şəxsi mənfəətlər ortaya çıxan zaman onların arasında olan birliyin mahiyyətcə zahiri xarakter daşıdığına görə onlar vəfasızlıq göstərib tezliklə bir-birlərindən ayrılarlar.

"التّائبون العابدون الحامدون السّائحون الرّاکعون السّاجدون الامرون بالمعروف
النّاهون عن المنکر و الحافظون لحدود اللّه و بشّر المؤمنين"[14]

("(Möminlər) tövbə, ibadət, həmd-səna, seyr, rüku və səcdə əhlidirlər, yaxşı işlər görməyi əmr edib pis işləri yasaqlayan və Allahın hədlərini qoruyandırlar. Belə möminləri müjdələ").

Bu şərafətli ayədə möminlər ən yaxşı sifətlərlə vəsf olunurlar: Möminlər başqa ilahdan Allaha sarı qayıtdıqlarına görə "tövbə edənlər", Ona ibadət etdiklərinə görə "ibadət edənlər", dil ilə ona həmd-səna oxuduqlarına görə "həmd deyənlər", qədəmləri ilə bu məbəddən o məbədə getdiklərinə görə "seyr, səyahət edənlər", rüku və səcdələrinə görə "rüku və səcdə edənlər" adlandırılırlar.

Göründüyü kimi, burayadək söhbət fərdi sifətlərdən və hər kəsin ayrı-ayrılıqda Allah-Təalanın qarşısında öz inam və bacarığı qədər yerinə yetirdiyi vəzifələrdən gedir, lakin sonrakı hissədə bu sifətlərlə kifayətlənməyib, möminlər cəmiyyətin

---

[14] Quran, ət-Tövbə surəsi, 112-ci ayə.

qoruyucuları kimi tanıtdırılır. Onlar xalqı xeyir və səadətə doğru aparırlar, yaxşı işlər görməyi əmr etməyi və pis işlərdən çəkindirməyi özlərinə vacib bilirlər, yaşayışın bütün məqamlarında, təklikdə, camaat arasında, gizlidə və aşkarda, Allahın hüdudlarından kənara çıxmırlar. Burada daha bir məsələni də qeyd edək ki, möminlər əmr-nəhy hökmünü yerinə yetirərək sağlam bir cəmiyyət qurur və bu işlə həm özlərini Allahın hüdudlarını qorumaqda vəzifəli bilir, həm də başqalarının həmin hüdudları aşmasından çəkindirirlər.

**“Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək” Peyğəmbər hədislərində və rəvayətlərdə”** adlanan ikinci fəsil üç bölmədən ibarətdir. Birinci bölmə “**Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək” Peyğəmbər hədislərində”** adlanır və orada “yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək” hökmləri müxtəlif Peyğəmbər hədisləri əsasında şərh edilir. Ən qədim zamanlardan etibarən insan cəmiyyətində haqqın, ədalətin, gözəl insani əxlaqın bərqərar olunması, insanları bəd əməllərdən, ədavətdən, düşmənçilikdən uzaqlaşdırmaq məqsədilə Allah-Təala zaman-zaman yer üzünə peyğəmbərlər göndərmişdir. Peyğəmbərlər öz missiyalarına uyğun olaraq, insanları pis əməllərdən çəkinərək, yaxşı işlər görməyə çağırmışdır. Bu da islam dininin əsas təməl qanunlarından olmuşdur.

Məhəmməd peyğəmbərin (s) hər bir əməli və hər bir kəlamı Allah-Təalanın hökmünün həyata keçirilməsinə və bəndələrin islah olunmasına yönəldilmişdir. Onun hədisləri, o cümlədən yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirməklə bağlı söylədiyi kəlamları Allah-Təalanın bütün bəşəriyyətə göndərdiyi islam dininin müqəddəs Kitabında deyilənlərin nəticəsi olaraq deyilmişdir. Aydın həqiqətdir ki, alimlər “Sünnə ilahi vəhyin əsəridir”[15] demişlər.

Peyğəmbərin hədislərində əmr-nəhy hökmləri xüsusi yer

[15] Ekrem Ziya Umeri. Hadis tarihi. Konya, 1990, s.5.

tutur.

لا تزال امّتی بخیرما امروا بالمعروف و نهوا عن المنكر [16]

("Mənim ümmətim nə qədər yaxşı əməllərə əmr edib, pis əməllərdən çəkindirsə, bir o qədər də sağlamlıqda və xeyirdə yaşayacaqdır").

Bu hədisdə Peyğəmbər (s) öz ümmətinin sağlamlığını, xoş güzəranını, xeyir və səadət içində yaşamasını əmr-nəhy etməkdə görür. O, öz ümmətinin xoşbəxtliyi üçün onları xeyirli işlər görməyə, insanları pis əməllərindən çəkindirməyə çağırmışdır. Bununla da, insanların qəlbində xeyirxahlıq duyğuları oyatmağa, biri-birinə qarşı dost, qardaş münasibətləri yaratmağa çalışmışdır.

من امر بالمعروف و نهی عن المنكر فهو خليفة الله فی ارضه و خليفة رسول الله و خليفة كتابه[17]

("Yaxşı işlərə əmr edib, pis işlərdən çəkindirənlər Allahın yer üzündə xəlifələri, Onun kitabının və Allahın Rəsulunun xəlifələridirlər").

Bu hədisdən göründüyü kimi yaxşı və xeyirxah işləri görməyə əmr edən və pis əməllərdən çəkindirən kəslərə nə qədər yüksək dəyər və məqam verilir. Quran və hədislərdə deyilən bu hökmləri yerinə yetirən insanlar yer üzündə Allahın və onun Rəsulunun Xəlifəsi, onların köməkçiləri və Qurani-Kərimi ən çox sevənlər hesab edilir. Çünki bu hökmlər cəmiyyətdə mənəvi sağlamlığı, əmin-amanlığı və gözəl əxlaqi keyfiyyətləri təmin edən başlıca amillərdir. Bu amillər olmadan cəmiyyətdə ədalətsizlik, hərcmərclik, quldurluq və s. baş alıb gedər.

من أمر بمعروف او نهی عن منكر او دلّ علی خير أو اشار به فهو شريك و من أمر بسوء او دلّ عليه أو اشاربه فهو شريك [18]

---

16 الحر العالمی الشيخ محمد بن الحسن. وشائل الشيعة، ١١ جلد، تهران، ١٤٠١، ص.٣٩٨.

17 ابن ماجه ابو عبدالله محمد بن يزيد القزوينی سنن ابن ماجه. الجلد الرابع، بيروت، ١٩٧٥، ص. ٤٨٤.

18 ابن شعبه حرانی، حسين بن علی. تحف العقول، ١١ جلد، قم، ١٤٠٤، ص. ٣٩٨.

("Yaxşı işə əmr edən, pis işdən çəkindirən və ya bir yaxşılığa yol göstərən şəxs o yaxşı işə şərikdir. Pis işə əmr edən, o işə yol göstərən və ya ona işarə edən həmin işə şərikdir").

Bu hədisdə deyildiyi kimi Allahın Rəsulu yaxşı və bəyənilən işlərə əmr edənləri, onlara yol göstərən və hətta işarə edənləri yaxşı adamlar kimi qəbul edir. Tərsinə pis və lazımsız işləri görməyi əmr edən, onlara yol göstərən və ya işarə edən adamları pis əməllər görən adamlar kimi qəbul edir, çünki bu peyğəmbərlərin missiyasının ziddinə olan fəaliyyətdir. Əgər Peyğəmbər (s) yaxşı işləri imkan daxilində etməyi lazım bilirsə pis əməllərin görülməsini qəti qadağan edir.

Peyğəmbər (s) belə buyurmuşdur: "İnsanlar zalımı görüb onun əllərini zülmdən çəkməzlərsə, (başqa rəvayətdə: "Yaxşılığı əmr edib pislikdən çəkindirməzlərsə) aradan çox vaxt keçməz ki, Allah onları bir cəza ilə hamısını məhv edər (Başqa bir rəvayətdə: "Sonra ona dua etsəniz də O, sizin duanızı qəbul etməz"".

**"Əli ibn Əbi Talib" yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək" hökmləri haqqında"** adlanan ikinci fəslin ikinci bölməsində islam dininin əsasını təşkil edən bu iki hökmün yerinə yetirilməsinin zəruriliyi imam Əlinin kəlamları əsasında araşdırılmasına həsr edilmişdir. Əli bin Əbi Talib (a.r.) insanları yaxşı əməllərin icrasına əmr etməyi və pis işlərdən çəkinməyi tövsiyə edərək bildirmişdir ki, bu iki hökm islam şəriətinin və islam dininin iki əsas rüknüdür. Bu rüknlər olmadan islam dini yaşaya bilməz. Ona görə də O, insanları islam dininin yaşaması və qüvvətlənməsi naminə bu iki hökmə əməl etməyə çağırmışdır.

اياكم و التدابر و التقاطع و ترك الامر بالمعروف و النهى عن المنكر[19]

("Biri-birinizdən üz döndərməyin, öz birliyinizi pozmayın, yaxşı işlər görməyi əmr etməyi və pis işlərdən çəkindir-

---

19 آمدی عبد الواحد. غرر الجکم و درر الكلام. تهران، ۱۳۸۰، ص. ۱۵۹.

məyi tərgitməyin”).

Bu rəvayətdə imam Əli cəmiyyətdə insanları biri-birindən üz döndərməməyə, biri-birinə yardımçı olmağa, bilmədiklərini biri-birlərinə öyrətməyə, öz birliklərini pozmamağa, biri-birlərinə inanmağa, ailəvi əlaqələri möhkəmləndirməyə dəvət etmişdir. Cahil insanlar bütün ləzzətləri və səadəti bu fani dünyada görür, axirət dünyasından isə xəbərsizdir. Onların xətalarını Qəzali belə şərh edir: “Bixəbər axirət dünyasının nemətlərindən heç bir şey bilmir və onlarla müqayisədə fani dünyanın ləzzətlərinin nə qədər əhəmiyyətsiz olduğunu anlamır”.[20]

İmam Əli əmr-nəhy hökmlərinin yerinə yetirilməsi haqqında belə demişdir:

فمن امر بالمعروف شدّ ظهور المؤمنين من نهى عن المنكر ارغم انوف المنافقين [21]

(“Yaxşı işlərə çağıran şəxs möminləri qüdrətləndirər, pis işlərdən çəkindirən isə münafiqlərin burunlarını yerə sürtər”).

Burada deyilir ki, möminlərə yardım etmək islamın möhkəmlənməsinə və inkişafına, insanlar arasında dostluq və qardaşlığın yaranmasına gətirib çıxarmışdır. Münafiqlər haqqında isə belə deyir: “Ey Allah bəndələri, Allahdan çəkinməyi sizə tövsiyə edirəm, nifaq salanlardan qaçmağı sizə məsləhət görürəm. Çünki onlar həm yoldan azmışlar, həm də yoldan azdırmağa çalışırlar”.[22]

**“Başqa imamlar “yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək” hökmləri haqqında”** adlı ikinci fəslin üçüncü bölməsində bu iki hökmün insan həyatında hansı yüksək əhəmiyyətə malik olduğu imamların kəlamları əsasında öyrənilir. Bütün məsum imamlar yaxşı işlər görməyə çağırmağın və pis əməllərdən çəkindirməyin əhəmiyyətini nəzərə alaraq, bu iki hökmə dəfələrlə öz münasibətlərini bildirmiş, islam

---

[20] Əbu Hamid əl-Qəzali. Əməllərin mizanı. Bakı, 2007, s.70.

[21] فيض الاسلام على نقى. نهج البلاغة. تهران، ۱۳۵۱، ص.۱۱۰۰.

[22] Həzrət Əmir Əli ibn Əbi Talib. Nəhcül-bəlağə. Bakı, 1994, s.128.

dini, cəmiyyət və insanlar üçün onların nə dərəcədə zəruri olduğunu söyləmişlər. İmam Məhəmməd Baqir (ə) buyurur: “Yaxşı işlər görməyə çağırmaq və pis işlərdən çəkindirmək elə bir böyük hökmdür ki, ona əməl olunması sayəsində başqa hökmlər də qüvvədə qalar (həyata keçər). Onun olmadığı yerdə ulu və qüdrətli Allahın qəzəbi hamını tutar”.[23]

İmam Cəfəri-Sadiq (ə) buyurur: “Yaxşı işlər görməyə çağırmaq və pis işlərdən çəkindirmək sifətləri Allahın sifətlərindəndirlər. Kim onların icrasına yardım etsə, Allah ona yardım edər və kim onları alçaldarsa, Allah onu alçaldar”.[24]

İmam Riza (ə) buyurur: “Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirməyin dil ilə edilmə mərhələsinə xüsusi əhəmiyyət vermişdir”.[25]

**“Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək” hökmləri çağdaş dünyada”** adlanan üçüncü fəsil üç bölmədən ibarətdir. “Çağdaş dünyada məruflarla münkərləri tanımaq yolları” adlanan birinci bölmədə yaxşlığı əmr etməklə pis əməllərdən çəkindirməyin çağdaş dünyada yeri işıqlandırılır. Hal-hazırkı elmi-texniki tərəqqi nəticəsində yer kürəsi qloballaşaraq, insanları bir-birinə daha da yaxınlaşdırır, onların arasında həmrəylik və müştərək iş birliyi yaradılmasına gətirib çıxarır. “Texnologiyanın inkişafı ilə bağlı dünya xalqlarını ən çox narahat edən məsələ hamının öz ixtisası qarşısında məsuliyyət hiss etməməsi və ona güvənməməsidir”.[26] Bu məsuliyyət hissini artırmaq və qüvvətləndirmək məqsədilə bütün dünya xalqlarının güvənəcəyi və arxalanacağı vahid və kamil qanunlara ehtiyacı vardır. Qəbul edilən həmin qanunlar ciddi şəkildə icra edilməli və onların icrası üzərində nəzarət olmalıdır.

23 كلينى ابو جعفر محمد بن يعقوبى. فروع كافى. جلد ٥. بيروت، ١٤٠٥، ص.٥٦.
24 الحر العاملى الشيخ محمد بن الحسن. رسائل الشيعة. جلد ١١، تهران، ١٤٠١، ص.٣٩٨.
25 ابن شعبه حرانى، حسن بن على. تحف العقول، قم، ١٤٠٤، ص.٤٤٤.
26 مصطفى اسرار. دانشتنيهاى نحج البلاغة. تهران، ١٣٧٣، ص. ١٨٩.

Müasir mürəkkəb cəmiyyətdə isə həmin qanunların dövlətin bütün ərazisində bir qrup məmur tərəfindən olduğu kimi icra ediləcəyinə ehtimal çox zəifdir. “İslam dövlət quruluşunda isə hamı bir-birinin qarşısında məsuliyyət daşıyır. Dövlət məmurlarının olması hələ heç kəsi, yəni heç bir vətəndaşı cəmiyyətin islahında iştirakdan azad etmir, bununla sadəcə olaraq icranın hüdudları müəyyənləşə bilər”.[27]

Əmr-nəhy hökmlərini yerinə yetirməklə onun yollarından, dərəcələrindən, müsbət və mənfi cəhətlərindən xəbərsiz olmamalıyıq, bu işə “hamının nəzarəti” mövqeyindən yanaşmalıyıq. Belə nəzarət işlərin düz yola gətirilməsi xatirinə aparılır. Elm və elmi uğurlar da bu məqsədə xidmət etməlidir.

Adətən hər bir cəmiyyətdə yaxşılıqlarla pisliklərə dair özünəməxsus meyarlar və göstəricilər vardır. Həmin meyarların əsasında “gərəklilər”lə “gərəkli olmayanlar” müəyyənləşir. Bu cür müxtəlif qəzavatların əksəriyyəti insanın fitrəti ilə əlaqəsi olmayan işlərə aiddir. Allah-Təala insanı vahid bir fitrətlə yaradıbdır. Buna görə fitri işlərə bağlı hər bir şeyə aid olan qəzavatlar eynidir. Əks halda onların müəyyən amillərin təsiri altına düşüb təhrif olunması şübhəsizdir.

Üçüncü fəslin “Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək” hökmləri cəmiyyətdə bir ümumi nəzarət kimi” adlanan ikinci bölməsi bu iki fərizənin çağdaş cəmiyyətdə bir nəzarət forması kimi onun əhəmiyyətindən bəhs edilir. Əmr-nəhy etmək müsəlman cəmiyyətində ümumi nəzarət prinsipinin əsası olaraq, islam qanunlarının icrasına ən möhkəm və qüdrətli bir dayaqdır. Allah-Təala islamın həyat verən qanunlarına düzgün riayət olunmasına nəzarət etmə vəzifəsini bütün cəmiyyət üzvlərinin öhdəsinə qoymuşdur. Buna əsaslanaraq hər bir müsəlman bu hökmləri yerinə yetirməklə islam hökmlərinin düzgün icrasına yardım edərək, gerçəkdən həm bir icra-

---

[27] ملکوتی مسلم. الامن العام فی الاسلام و النظارة العامة للعموم علی العلوم. تبریز، ۱۳٦۲، ص.۱۲٦.

edici qüvvə, həm də ciddi nəzarətçi sayılır. Buna görə də əmr-nəhy etmək prinsipinə əməl olunması həddi-buluğa çatmış və ağıllı olan hər bir müsəlman bu prinsipə əməl edib-etməməsinə görə özünü müsəlman hesab edən şəxs məsuliyyət daşıyır.

Bu prinsiplərin insanlar tərəfindən yerinə yetirilməsi müsəlman cəmiyyətinin bütün icra aparatları üzərində nəzarət edilməsinə imkan verir. Bu cəmiyyətin hər bir üzvü yaxşı əməllər əmr edib, pis əməllərin aradan qaldırılmasına çəkinmədən və qorxmadan çalışarsa bu zaman cəmiyyətdə əmin-amanlıq, ədalət hökm sürər. Hər bir müsəlman cəmiyyətdə təkcə özü ilə məşğul olmamalı, həm də onunla birlikdə cəmiyyətdə yaşayan insanların hidayət yoluna gəlməsinə, şər işlərdən uzaqlaşdırılmasına çalışmışdır. “İnsan cəmiyyətdə əmin-amanlıqda olması üçün Allah qəzəb, kin, nifrət, intiqam, şayələr, böhtan kimi pis əməllərdən uzaq olmağı əmr etmişdir. Cəmiyyətin və şəxsiyyətin əmin-amanlığı naminə O, hamının biri-birinə xeyirxahlıq etməsini, biri-birini düzgünlüyə və həqiqətə çağırmağı, pis əməllərdən çəkinməyi əmr etmişdir”.[28]

Əmr-nəhy etmək prinsipi idarəçilik işlərinə ümumxalq nəzarəti səviyyəsinə yüksəldir. Quran yaxşılıq əmr etmək və pislikdən çəkindirmək prinsipini rəhbər tutan ümməti başqa ümmətlərlə müqayisədə üstün tutur, fəzilət və kəramət zirvəsinə qaldırır, bu prinsip əsasında Quran müsəlmanların biri-birinə və idarəçilik işlərinə nəzarətini dini vacibət səviyyəsinə qaldırır. Bu da bütövlükdə ümmətin nəzarət haqqı kimi izah edilir. Ona görə də hər bir müsəlman bu vacibatı yerinə yetirməyə mükəlləf olunmuşdur.

Buna görə də islam bütün müsəlmanlara öz rəhbərlərinin və dövlət strukturlarının fəaliyyətinə nəzarət hüququ vermişdir ki, onlar yaşadıqları cəmiyyətdə yüksək əxlaqi və mənəvi keyfiyyətlərə nail ola bilsinlər.

Əmr-nəhy hökmlərinin min il bundan öncə önəmliliyi mü-

---

[28] □.□□□□□. □□□□□□□□□□□ □ □□□□□□□. □□□□, 2005, □□.156.

səlmanları islam hökuməti və toplumlarında bu işin rəhbərlik və icrasını öhdəsinə götürəcək özəl bir orqan və ya təşkilat qurmağa məcbur etdi. Həmin təşkilat islam tarixində “həsəbə, yaxud ehtisab dairəsi” (hesaba alma, ölçü götürmə, dəyərləndirmə idarəsi) adı ilə məşhurlaşdı və yüz illər boyu bu adla fəaliyyət göstərdi. Bu adın və hətta bu təşkilatın nə zaman meydana çıxması dəqiq bilinməsə də, tarixi mənbələr onun yaradılma dövrünün miladi tarixi ilə onuncu əsrə, böyük ehtimalla aid etməyə əsas verir.[29]

Bu təşkilat yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmək inamı əsasında yaranmışdı və “qəza təşkilatı” ilə “məzalim idarəsi” (şəhər polis idarəsi) kimi onun təməlində duran və dini inam və etiqadlar üzərində qurulan orqanlar bütünlüklə hökumətə bağlı idilər. Bu idarə dini bayraq altında fəaliyyət göstərirdi və onun “möhtəsib” adlanan başçıları təqvalı, dinli-imanlı və camaat arasında yaxşı ad qazanmış adamlar olmalıydılar. Möhtəsib xalqın işlərinə nəzarət edərdi ki, onlar münkərə əl atmasınlar. Həsəbə sözü əmr-nəhyə aid bir istilah kimi “həsəbə idarəsi” yaranandan sonra işlənməyə başladı, Quran və rəvayət mətnlərində isə biz belə sözə rast gəlməmişik. Lakin “həsəbə” sözü cəmiyyətdə get-gedə özünə yer tapmış və hətta iş o yerə çatmışdı ki, bəzi alımlər və fəqihlər öz kitablarında ona “babül-həsəbə” və ya “kitabül-həsəbə” adı altında ayrı bir fəsil həsr etmişdilər.

“Yaxşı işlər görməyi əmr etmək və pis işlərdən çəkindirmə” hökmlərinin şərtləri və təsiri” adlı üçüncü fəslin üçüncü bölməsində göstərilən hökmlərin ümumi və xüsusi şərtləri və cəmiyyətə təsiri araşdırılır. Hər hansı bir işin həyata keçirilməsi və inkişafi müəyyən şərtlər əsasında mümkün olur. İslam ehkamlarının yerinə yetirilməsi üçün də islamın müqəddəs şəriəti qarşıya bir sıra şərtlər qoyubdur. Əmr-nəhyin də digər vaciblər kimi müxtəsər şəkildə aşağıda göstərilən həm ümumi,

---

29 مطهری مرتضی. ده گفتر. تهران، ۱۳٦٦، ص.۵۸.

həm də xüsusi şərtləri vardır:

1. Məruf ilə münkəri tanımaq. Yaxşılığa çağıran və pislikdən qoruyan şəxs hər şeydən öncə yaşadığı cəmiyyətdə nəyin bəyənilən, nəyin isə bəyənilməyən olduğunu dərk etməlidir.

2. Təsirli olmaq ehtimalı. Əmr-nəhy edən şəxs öz zəhmətinin yüzdə yüz faydalı olacağına əmin olmasa da bu işin təsirli olacağına ehtimal varsa, bu məsələ ona vacibdir.

3. Pis işləri görüb yaxşi işləri tərgitməkdə israrlı olmaq. Fəqihlər, əmr-nəhyi tərgidib tamamilə yaddan çıxaran adamlara əmr-nəhyi tətbiq etməyin lazım olduğu fikirdədirlər.

4. Zərərin yetişməməyinə əmin olmaq. Əmr-nəhy etmək əks nəticəyə gətirib çıxarırsa, onu tərk etmək düzgün olardı.

Əmr-nəhyin icrasının növləri. Dini ədəbiyyatda əmr-nəhyin üç mərhələsi göstərilir:

1. Qəlbdəki nifrəti nümayiş etdirmək. 2. Dil ilə əmr-nəhy etmək. 3. Zordan istifadə etmək.

Əmr-nəhyin təsiri. Ayrı-ayrı şəxslərə göstərilən (fərdi) təsir.

Dünyadakı təsir: Dünyada insanlara və ilk növbədə əmr-nəhy edənlərə nəsib olan təsirin təsnifatı belədir:

a) Din ilə dünya sağlamlığı: Məruflara çağırıb münkərlərdən uzaqlaşdıranlar başqalarını da pisliklərdən çəkindirib, bəyənilmiş əməllərə doğru hidayət etməklə özləri də bu işin təsiri altına düşəcəklər və nəticədə maddi-mənəvi və ruhi-cismani sağlamlıq qazanacaqlar.

b) İlahi yardımı almaq. İlahi qanunların ən düz icraçıları gerçəkdə Allahın əsgərləridirlər. bu səbəbdən də Onun yardımından bəhrələnəcəklər.

c) Bəla və müsibətlərdən qurtulmaq. Bəlalardan can qurtaranlar günahkarlardan fərqli olaraq, məsuliyyəti hiss edən və milləti pis yollardan uzaqlaşdırıb yaxşı işlərə çağıranlardır.

Axirətdəki təsir:

a) Allahın rizası. O dünyada insana verilən ən böyük və ən

ali töhfə Allahın rizasıdır. Bu da insanın əmr-nəhy əməllərinə görə ələ gələr.

b) Nicat tapıb xoşbəxt olmaq istəyən şəxs öz Allahını tanıyıb, əmr-nəhy etməlidir.

c) Allahın əzabından qurtulmaq. Allah-Təalanın lütfu Onun əmrlərini yerinə yetirməyə çalışan və eyni zamanda xalqı da buna çağıran insanları əhatə edər.

ç) Cənnətə daxil olmaq. Əmr-nəhyi yerinə yetirənlərə axirətdə İlahi behiştə getməyin nəsib olması təbiidir.

d) Əməlisalehlərlə bir yerdə oturmaq. Allah hökmlərinin icrasında canlarından və mallarından keçən əməlisaleh insanlar qiyamət günü "babül-məruf"dan cənnətə daxil olub, məruf əhli ilə bir yerdə oturacaqlar.

Bütövlükdə cəmiyyətə göstərilən (ictimai) təsir:

1 – İslam hökmlərinin icrası. Əmr-nəhy etmək bir nəzarətdir və onu icra edən hər bir müsəlman islamın hökmlərini yerinə yetirməyə yardımçı olur.

2 – İctimai ədalət. İslam hökmlərinin düzgün icrasına ümumi nəzarət cəmiyyətdə ədalətin hakim olması ilə nəticələnib ləyaqətli, ədalətli və şərafətli həyat sürmək üçün zəmin yaradar.

3 – Abadlaşdırma. Müsəlman cəmiyyətinin vətəndaşları özgələrə möhtac olmasın deyə bir-birlərini çalışmağa çağırıb, özləri də bu abadlaşdırma işində əlindən gələni əsirgəməzlər və bu zəhmətdən şadlıq törənib bütün cəmiyyəti bürüyəcəkdir.

4 – Dövlət quruluşunun möhkəmlənməsi. Müsəlman dövlət quruluşunda millət dovlət önündə məsuliyyət daşıdığı kimi, dovlət məmurları da millətə görə məsuldurlar. Bu qarşılıqlı məsuliyyətin davam etməsi dövlət quruluşunun möhkəmlənməsinə yol açacaqdır.

5 – Əmin-amanlıq. Cəmiyyətdə əmin-amanlığın bərqərar olması əmr-nəhy etməyin ən mühüm nəticələrindəndir.

6 – Möminlərin qüdrətlənməsi. Əmr-nəhyin icrası müsəl-

manları bir-birlərinə yaxınlaşdırıb qüdrətləndirər.

7 – Münafiqlərin zəifləməsi. İman gətirənlər öz işlərində dini-imanı əsas tutub, əmr-nəhy silahı ilə münafiqlərin qarşısını almalıdırlar.

8 – İş ilə qazancın paklığı və halallığı. Hər bir işin və qazancın bərəkəti onun düzlüyü və halallığındadır.

Əmr-nəhydən uzaqlaşmağın təsiri.

a) Fərdi (ayrı-ayrı şəxslərə) təsir. Əmr-nəhydən uzaqlaşmaq hər şeydən əvvəl insanın qəlbində əqli və nəqli yolla sübuta yetirilən arzuolunmaz izlər qoyur:

1. Allahın rizasını qazanmamaq. 2. Məsuliyyəti hiss etməmək. 3. Başqalarının günahlarına şərik olmaq. 4. Mənəvi xoşbəxtlikdən məhrum olmaq. 5. Tanrının xüsusi rəhmətindən məhrum olmaq.

b) İctimai (bütövlükdə cəmiyyətə) təsir. Bir şəxsin islahı bir cəmiyyətin islahının başlanğıcıdır. Əmr-nəhydən uzaqlaşmağın cəmiyyətə təsiri bu mühüm İlahi hökmləri tərgitməkdə və ya onlara əhəmiyyət verməməkdə özünü göstərir. Belə mənfi təsirin müxtəlif təzahüratlarına aşağıda işarə olunur:

1. İctimai fəsadların yayılması. 2. Yaman insanların hökmranlığı. 3. Allahın əzabı. 4. Cəmiyyətin dağılıb aradan getməsi.

Mənfi təsirin səbəbləri:

1. Etiqadın zəif olması. 2. Tərbiyə məsələləri. 3. İqtisadi məsələlər. Yoxsulluq insanı qanunu pozmağa və hətta onu küfrə sarı çəkər. 4. Hakimiyyətin siyasəti. Cəmiyyətin başçısının yanlış fikirləri cəmiyyəti əxlaqsızlığa və qanunsuzluğa sürükləyər.

Dissertasiya işinin əsas məzmunu müəllifin çap olunmuş aşağıdakı əsərlərində öz əksini tapmışdır:

1. Mərufla Münkərin anlamı və mənası. - Filologiya məsələləri. Azərbaycan Milli Elmlər Akademiyası M.Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, 2010, №3, s.429-438.

2. “Emr bil-Maruf” “Nehy-i Anil Münker”in Etkileri. Bilimsel eksen. Ankara, BRC Basım, 2011, №4, s.76-82.

3. “Əmr bil-məruf və nəhy anil-münkər” islamın əsas hökmləri kimi. Orta əsr əlyazmaları və Azərbaycan mədəniyyəti tarixi problemləri XII. Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu. Bakı, Nurlan-2011, s.317-325.

4. “Əmr bil-məruf və nəhy anil-münkər” hökmləri cəmiyyətdə ümumi nəzarət forması kimi. Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası. Bakı, 2011, №2, s.206-211.

5. “Əl-əmr bil-məruf vən-nəhy anil-münkər” Peyğəmbər hədislərində. Bakı Dövlət Universiteti İlahiyyat fakültəsinin Elmi məcmuəsi. Bakı, 2011, №15, s.229-237.

6. Quranın “əmr” və “inkar” hökmlü ayələrinə dair. Dövlət və din. Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi. Bakı, 2011, 1(21), s.128-133.

7. Qurani-Kərimin nəhy (qadağan) ayələri. Dövlət və din. Azərbaycan Respublikası Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsi. Bakı, 2011, 3(23), s.106-112.

8. Əli bin Əbi Talib “Əmr bil-məruf və nəhy anil-münkər” haqqında. Mədəniyyət dünyası, XXI. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti. Bakı, 2011, s.117-121.

9. Предписания «Амр бил-маруф ва нахй анил-мункар» как форма общественного контроля. «Гилея» науковый вестник – Национальный Педагогический Университет имени М.П.Драгоманова Украинская Академия Наук. Выпуск 59 (№4). Киев – 2012, стр.614-617.

**А.И.Абидзаде Андарьян**

## Место «амр бил-маруф ва нахй анил-мункар» в Коране и хадисах

### Резюме

В данной диссертации заповеди «Призыва к благим делам и удержания от плохих деяний», составляющие основу ислама впервые изучаются на основе хадисов Пророка и изречений имамов.

В первом параграфе первой главы под названием «Призыв к благим делам и удержание от плохих деяний в стихах Корана» определяются словарное и терминологическое значения слов маруф и мункар. Во втором, третьем и четвертом параграфах этой главы исследуются повелительные и запретные стихи Корана.

Вторая глава под названием «Призыв к благим делам и удержание от плохих деяний в хадисах и преданиях Пророка» состоит из трех параграфов. В первом параграфе «Призыв к благим делам и удержание от плохих деяний» комментируется на основе хадисов Пророка, во втором – на основе изречений Али бин Аби Талиба, в третьем же – изречений других имамов.

Третья глава под названием «Призыв к благим делам и удержание от плохих деяний в современном мире» состоит из трех параграфов. В первом параграфе освещается место повелительных и запретных заповедей в современном мире. Во втором параграфе повествуется о значимости повелительных и запретных заповедей как форме контроля в современном обществе. В третьем параграфе

исследуются общие и особые условия повелительных и запретных заповедей, а также их влияние на общество.

**A.I.Abidzadeh Andaryan**

## The place of "amr bil-maruf va nahy anil-munkar" in Koran and hadithes


### Summary

In the given dissertation "Appeal to do good deeds and restraint from evil ones" commandments being the base of Islam for the first time are studied on the base of Prophet`s hadithes and sayings of Imams.

In the first paragraph of the first chapter under title "Appeal to do good deeds and restraint from evil ones in the verses of Koran" vocabulary and terminological meanings of the words maruf and munkar are defined. Verses of Koran with ordering and prohibitory commandments are investigated in the second, third and fourth paragraphs of this chapter.

The second chapter under title "Appeal to do good deeds and restraint from evil ones in Prophet`s hadithes and stories" consists of three paragraphs. In the first paragraph "Appeal to do good deeds and restraint from evil ones" is commented on the base of Prophet`s hadithes, in the second paragraph on base of Ali bin Abi Talib`s sayings, in the third one – other Imams` sayings.

The third chfpter under title "Appeal to do good deeds and restraint from evil ones in the modern world" consists of three paragraphs. In the first paragraph the place of ordering and prohibitory commandments in the modern world is lighted. The second paragraph deals with importance of ordering and prohibitory commandments as the form of control in modern society. In the third paragraph general and special conditions

of ordering and prohibitory commandments, as well as their influence on the society are investigated.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ РУКОПИСЕЙ имени МУХАММЕДА ФИЗУЛИ**

***На правах рукописи***

**АБИДЗАДЕ АНДАРЬЯН АСКЕР ИМРАН ОГЛЫ**

# МЕСТО «АМР БИЛ-МАРУФ ВА НАХЙ АНИЛ-МУНКАР» В КОРАНЕ И ХАДИСАХ

**7213.01 – Религиоведение**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени доктора философии по богословию**

**БАКУ - 2013**